4 mart 2022-ci il, cümə XALQ QƏZETİ



*Xarici siyasətimiz daxili siyasətimizin davamıdır. Bu gün Azərbaycanın xarici siyasəti prinsipiallığı və müstəqilliyi ilə seçilir. Bunun əsas səbəbi, əlbəttə ki, güclü siyasi iradənin mövcudluğudur. Çünki güclü siyasi iradə olmasa, heç bir ölkə müstəqil siyasət apara bilməz. Bu siyasi iradə vardır. Bu siyasi iradə özünü həm daxili, həm xarici siyasət məsələlərində göstərmişdir. Eyni zamanda, ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə imkan verir ki, xarici arenada da öz sözümüzü deyək, öz maraqlarımızı müdafiə edək.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# Xalqın maraqlarını təmin edən xarici siyasət

***Ölkəmiz dövlət müstəqilliyini bərpa edəndən sonra dünya birliyinə inteqrasiya etməyə macal tapmamış, erməni qəsbkarlarının hücumuna, işğalına məruz qalmışdı. Əlbəttə, bu işğalçılıq siyasəti hələ SSRİ parçalanmamış başlamışdı. Bu parçalanmanı fürsət bilən ermənilər müxtəlif qüvvələrin dəstəyi ilə işğal prosesini sürətləndirirdilər. Hərc-mərclik, böhran ölkəmizi bölgə-bölgə öz girdabına çəkdiyi bir vaxtda xalqımızın vətənpərvər oğulları Heydər Əliyevi siyasi hakimiyyətə dəvət etdilər. Bu, təkcə Azərbaycan üçün deyil, ümumilikdə, region üçün çox mühüm hadisə idi.***

Ulu öndərin ölkəmizdə yaratdığı sistem bütün sahələrdə həyata keçirilən uğurlu islahatlarla daha da möhkəmləndi. Bu, müasir, güclü və ən əsası müstəqil Azərbaycan Respublikasının bünövrəsini təşkil edən təməl sütunları idi.

Ümummilli liderimizin siyasi davamçısı olan cənab İlham Əliyevin prezident seçilməsindən sonra ölkəmizdəki hərtərəfli inkişaf prosesinə gənclik şövqü və müasir düşüncə tərzi də əlavə olundu. Son 18 illik tariximizə nəzər saldıqda, qeyd edilən bütün nüansları aydın şəkildə sezmək mümkündür.

Ümumiyyətlə, mənim həmyaşıdlarım üçün, uşaqlıq, ilk gənclik illəri hər zaman inkişaf edən, ildən-ilə beynəlxalq nüfuzu artan, hər cəhətdən müstəqil bir respublikanın vətəndaşı olmağın qüruru ilə keçib. Əlbəttə, xalqımız 30 ilə yaxın bütün bu uğurları qara buludların kölgəsində, geriyə boylananda gördüyü, hiss etdiyi ağrıacının müşayiəti altında izləyirdi. Yenicə oxumağı öyrənən uşaqların da, həmin faciələrin canlı şahidi olan insanlarımızın da gözündə və könlündə eyni nisgil, eyni fəryad taxt qurmuşdu.

Xalq qəlbində bu hissləri bəsləyərkən, qələbənin, torpaqlarımızın işğaldan azad edilməsinin xəyalını qurarkən, Prezident İlham Əliyev həmin zəfərin cizgilərini çəkirdi. Əlbəttə, biz bunu 44 gün davam edən, uzun illər bükülü qalan qamətimizi düzəldən Vətən müharibəsi zamanı daha yaxşı başa düşdük. Anladıq ki, ordumuzun gücləndirilməsi, müasirləşdirilməsi əbəs yerə deyilmiş. Bu zəfər, həm də əsassız mənfi düşüncələrlə xalqın könlünü bulandırmağa çalışan "vətənpərvər"lərin ağzının yumulmasına səbəb oldu.

Prezident İlham Əliyev yaxşı başa düşürdü ki, əgər xarici siyasətimizdə boşluqlar, axsaqlıqlar olarsa, biz heç vaxt güclü iqtisadiyyat xəyallarına çata bilmərik. Çünki, dövrümüzdə iqtisadiyyat sadəcə bir ölkənin sərhədləri daxilində, özünü xarici dövlətlərdən təcrid edərək yarada biləcəyi bir sistem deyil. Bu səbəbdən, güclü iqtisadiyyatın təməlində xarici siyasət prinsiplərinin düzgün seçilməsi dayanır. Bu, həm ticarət əlaqələrinin, həm də siyasi əməkdaşlıqların məcmusu, əmələ gətirdiyi vahid bir sistemin bəhrəsidir. Biz Vətən müharibəsindən sonra bir daha əmin olduq ki, torpaqlarımızın işğaldan azad edilməsi üçün siyasi suverenliklə yanaşı, iqtisadi müstəqillik də əsas şərtlərdən biri idi.

Təəccüblü deyil ki, hələ 2008-ci ildə Dünya Bankının hazırladığı cədvələ əsasən dünyanın ən islahatçı ölkəsi Azərbaycan olmuşdur. Bu uğur, Prezident İlham Əliyevin də dediyi kimi, xarici siyasətin daxili siyasətlə eyni ortaq maraqlara xidmət etməsi, daxili siyasətimizin isə xalqın mənfəətlərinə xidmət etməsi ilə qazanılıb.

Zaman keçdikcə Azərbaycan təkcə öz daxili məsələlərində deyil, həm də dünyanı maraqlandıran qlobal çağırışların həlli, müzakirəsi zamanı uğurlu və uzaqgörən addımlar atan, təşəbbüslər irəli sürən ölkəyə çevrildi. Burada belə bir sual yaranır: Necə ola bilər ki, dünya dövlətləri, nəhəng beynəlxalq təşkilatlar öz daxili məsələlərində uğur qazana bilməyən bir dövlətin qlobal problemlərin həll edilməsi üçün təşəbbüs irəli sürməsinə şərait yaratsın? Hələ üstəlik, bu təşəbbüslər hamılıqla qəbul edilərək həyata keçirilsin? Beləliklə, təkcə bu bəsit məntiq belə Azərbaycanın daxili və xarici siyasət prinsiplərinin saat kimi dəqiq və harmonik tətbiq edildiyini göstərir.

Biz multikultural dəyərlərə hörmət edən, dövlətçilikdə insan amilinə diqqət ayıran müstəqil respublikada yaşayırıq. Dövlətimiz bütün ölkələrin ərazi bütövlüyünə ehtiramla yanaşır. Bununla yanaşı, Azərbaycanın xarici siyasət kursunda yer alan ən mühüm istiqamətlərdən biri də heç bir dövlətin daxili məsələlərinə qarışmamaq, müdaxilə etməməkdir. Təsadüfi deyil ki, Azərbaycan bu gün BMT-dən sonra dünyanın ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik edir.

Məhz bu istiqamətdə ölkəmizin günbəgün nüfuzu artır. Bütün dünyanı çənginə alan qlobal pandemiya dövründə Azərbaycanın həyata keçirdiyi tədbirlər, ölkəmizin pandemiyaya qarşı mübarizədə nail olduğu uğurlar bir daha sübut etdi ki, Prezident İlham Əliyev, sadəcə, inkişaf prosesini deyil, eləcə də xaos dövründə ölkəni mahir şəkildə idarə edir. Belə ki, yoluxmaların kəskin şəkildə azalmasına vəsilə olan kütləvi qapanmalar, bunun xalqa təsirini azaltmaq üçün hazırlanan yardım paketləri, səhiyyə sahəsində sürətlə aparılan islahatlar, yeni açılan modul tipli və normal statuslu xəstəxanalar bütün bir sistem yaratdı, bu sistem pandemiya ilə Azərbaycan xalqının arasında qalxan funksiyasını yerinə yetirdi. Azərbaycan, həmçinin pandemiya zamanı COVID-19-la mübarizə aparmaqda çətinlik çəkən dövlətlərə də tibbi və maliyyə yardımı göndərdi ki, bu da, ölkəmizin inkişafından xəbər verir.

Bütün bunlarla yanaşı, ölkəmizin iqtisadi həyatında da inkişaf səngiməDİ, pandemiyanın və Vətən müharibəsinin iqtisadiyyatımıza vurduğu ziyana baxmayaraq, ölkə iqtisadiyyatı geriləmə dövrünə girmədi, düzgün və vaxtında atılan addımlarla öz gücünü qorudu və bu dövrü mümkün olan ən az zərərlə geridə qoydu. Pandemiya zamanı Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən tədbirlər də, dünya ölkələrinin koronavirusa qarşı məlumatlanmasına və daha səmərəli tədbirlər həyata keçirməsinə şərait yaratdı. Bu isə o deməkdir ki, Prezidentimiz belə bir böhranı da fürsətə çevirərək ölkəmizin nüfuzunun artmasını təmin edib.

Qeyd etdiyimiz kimi, Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünə hörmət edir. Bu mənada, dünyada, xüsusilə də regionda baş verən müharibələr, silahlı qarşıdurmalar zamanı ölkəmiz hər zaman sülhün təmin edilməsinin tərəfdarı olur. Davamlı sülhün bərpa edilməsi, atəşkəsin təmin olunması üçün təşəbbüslər irəli sürən ölkəmiz, həm də müharibədən zərər çəkən dövlətlərə humanitar yardım göndərir, günahsız insanaların ağrı-acılarını azaltmaq, yaralarına məlhəm olmaq üçün barış missiyasından geri durmur. Əlbəttə, regionda baş verən müharibələr, qarşıdurmalar daha həssas yanaşma tələb edir. Belə ki, qonşu dövlətlərlə iqtisadi-siyasi əlaqələrin inkişafı xarici siyasətimizin ən önəmli istiqamətlərindən biridir.

Ümumiləşdirsək, belə bir qənaətə gələ bilərik ki, Azərbaycanın həyata keçirdiyi xarici siyasət kursu, ilk növbədə, xalqımızın maraq və mənfəətlərinə sadiq qalaraq bu istiqamətdə hərəkət etmək, heç bir dövlətin daxili məsələlərinə toxunmamaq, müharibə və hərbi əməliyyatların dayandırılmasına yardımçı olmaq və balanslı siyasi kursuna sadiq qalmaqdır.

**İmran ƏLİYEV,**
**"Xalq qəzeti"**